# Təhsil müəssisələrində yüksək vətənpərvərlik, döyüş ruhu müşahidə olunur

Son günlər cəbhəboyu ərazilərdə Silahlı Qüvvələrimizin əldə etdiyi uğurlar bir daha göstərdi ki, Azərbaycanın vahid, güclü ordusu var. Aprelin əvvəllərində Qarabağda gedən 4 günlük hərbi əməliyyatlar zamanı hamımıza daha aydın şəkildə məlum oldu ki, xalqımızda çox yüksək səviyyədə vətənpərvərlik, döyüş ruhu mövcuddur. Bu ruhu, bu günlərdə olduğumuz təhsil müəssisələrində də müşahidə etdik. Məktəblərimizdə bu əhvali-ruhiyyəni gördükdən sonra bir daha əmin olduq ki, təhsil müəssisələrində vətənpərvərlik tərbiyəsi yüksək səviyyədə qurulub.

**Cəlal Cəlilov,** *Bakı şəhəri 100 nömrəli tam orta məktəbin gənclərin çağırışaqədərki hazırlığı rəhbəri:*

– Şagirdlərimizin döyüş əhvali-ruhuyyəsi çox yüksək səviyyədədir. İnanın ki, bu gün yeniyetmələrimizin əlinə silah versək heç bir tərəddüd etmədən cəbhəyə yollanmağa hazırdırlar. Hətta son günlər bununla bağlı şagirdlər tərəfindən mənə çoxlu müraciətlər də olub. Onlar döyüşə getmək, düşmən tapdağı altında olan torpaqlarımızı azad etmək arzusu ilə yaşayırlar. Biz müəllimlər həmişə şagirdləri vətənpərvərlik ruhunda tərbiyə etməyi, onlarda millət, dövlət sevgisi aşılamağı qarşımıza məqsəd qoyuruq. Son hadisələr zamanı məktəbimizdə "ermənilər bizim düşmənimizdir" şüarı altında böyük bir aksiya keçirildi. Bütün məktəb bu aksiyada iştirak etdi. Bundan başqa, məktəbimizin "Şahinlər" komandasının üzvləri Binəqədi rayonundan olan 4 nəfər şəhidimizin dəfn mərasimində iştirak etdilər.

**Anar Bayramov,** *Bakı şəhəri Məktəb-Lisey Kompleksinin XI sinif şagidi:*

– Vətən müqəddəsdir. Onun hər şeyi - dağı, daşı, torpağı, suyu və səması bizim üçün əzizdir, doğmadır. Ata-babalarımız bu torpaqlarda yaşamış, onu becərmiş, qorumuş, onun uğrunda vuruşmuşlar. Onlar bu torpaqlar uğrunda canlarından keçib, şəhidlik rütbəsinə yüksəlmişlər. Mən indi şagird olsam da Vətənimizin müdafiəsi, işğal altında olan torpaqlarımızın erməni tapdağından azad edilməsi üçün özümü hazır hiss edirəm. Hərbi dərslərdə müəllimlərimizdən silah və sursatlar haqqında geniş məlumatlar öyrənmişik. Onları necə işlətməyi və necə rəftar etməyi bilirəm. Düşünürəm ki, müharibə şəraitində olan ölkənin yeniyetmə və gənclərinin hamısı bunu bilməlidir. Aprelin əvvəllərində gedən döyüşlərə gəldikdə isə mən bir daha Vətənimin igid və qəhrəman oğulları ilə qürur duydum. Sinif yoldaşlarımızla həmin hadisələr vaxtı bu mövzuda söhbət edirdik. Əldə etdiyimiz yüksəkliklərin xəbərini eşidəndə istər-istəməz adam sevincindən kövrəlir. Dövlətimizin və ordumuzun gücü bizi bir daha əmin edir ki, biz itirilən torpaqlarımızı azad edəcəyik.

**Nərminə Kərimova,** *Bakı şəhəri 308 nömrəli tam orta məktəbin X sinif şagirdi:*

– Mənim 15 yaşım var. Arzum gələcəkdə hərbiçi olmaqdır. Əvvəllər qızların hərbiçi olmasına bir az münasibət fərqli olsa da indi hiss edirəm ki, qız hərbiçilərimizə ehtiyac var. Hərbi və tarix fənnini çox sevirəm. Vətənimizin müdafiəsi üçün mən də döyüşlərə hazıram. Deyirlər ki, Vətən sərhəddən başlanır. Vətən məndən, səndən, ondan başlanır. Deməli, sərhəd dedikdə, mən, sən, o nəzərdə tutulur. Yəni, Azərbaycan torpağının üzərinə səpələnən hər bir azərbaycanlı bu torpağın düşmən çəpəri və yaxud sərhəddinin keşiyində duran şanlı əsgəridir. Doğma vətənim Azərbaycan müxtəlif fikirli və əqidəli övladları birləşdirən yeganə anadır. O ana ki, övladları arasında heç bir fərq qoymur, hamısını böyük məhəbbətlə ağuşuna alır.

**Mübariz Mehdiyev,** *Bakı şəhəri 308 nömrəli tam orta məktəbin gənclərin çağırışaqədərki hazırlığı rəhbəri:*

– Gənclərdə vətənpərvərlik hissinin aşılanması, formalaşdırılması məhz məktəblərin üzərinə düşən vəzifələrdəndir. Vətənpərvərlik hissi uşaqlarda körpə yaşlarından formalaşdırılmalıdır. Torpaqlarımızın işğal altında olduğu bir şəraitdə hərbi dərslərdə şagirdlərdə vətənə, torpağa, elə-obaya sevgi, məhəbbət hissini formalaşdırmaq məqsədi ilə müxtəlif tədbirlər həyata keçirilir və bu mövzuda geniş söhbətlər aparırıq. Torpaqlarımızın 25 ildir ki, erməni təcavüzkarları tərəfindən işğal olunması və aprelin əvvəllərində məlum hadisələr haqqında xeyli müzakirələr aparmışıq. Bunu uşaqlara faciə kimi deyil, bu faciəni törədənlərə nifrət hissi kimi aşılamışıq. Hər bir cəmiyyətin gələcəyi onun yetişməkdə olan gənc nəslidir. Gənc nəslə qayğı isə hər bir dövlətin siyasətinin aparıcı istiqamətlərindən biridir. Bugünkü məktəbli nə qədər savadlı, nə qədər vətənpərvər, nə qədər yüksək dünyagörüşünə malik olarsa, dövlətin, millətin gələcəyi bir o qədər işıqlı və ümidverici olar. Bu mənada məktəb gələcəyimizin bünövrəsinin möhkəmlənməsinə xidmət edən bir qurumdur, bir ocaqdır.

**Kərim Məmmədov,** *Bakıdakı 100 nömrəli tam orta məktəbin X sinif şagirdi:*

– Artıq 25 ilə yaxındır ki, Vətənimizin ərazi bütövlüyü təmin olunmamışdı. Torpaqlarımız düşmən tapdağı altında idi. Onsuz da gec-tezi bu müharibə başlamalı idi. Neçə ildir eşidirdik ki, hər dəfə düşmən dinc dayanmır, tez-tez təxribatlar törədir. O mənfur düşməni susdurmaq lazım idi. Mən də gələcəyin çağırışçısı kimi düşmənlə üz-üzə gəlməyə hazıram. Onlar bilirlər və bilməlidirlər ki, Azərbaycanın qeyrətli oğul və qızları var. Mənim ən böyük arzum da hərbiçi olmaqdır. Öz yaşıdlarıma Vətəni həmişə sevməyi, onu qorumağı tövsiyə edirəm. Düşünürəm ki, əgər öz yaşadığın yurdun, ölkənin keçmişini, bu gününü yaxşı bilməsən, onun torpağını qorumasan, sən əsl vətəndaş ola bilməzsən. Fürsətdən istifadə edərək şəhid analarına və atalarına bu sözləri demək istəyirəm: "ağlamayın, ana və atalarımız. Biz də sizlərin övladlarınızıq. Şəhid qardaşlarımızın qanlarını yerdə qoymayacağıq!"

**Niyazi RƏHİMOV,**
**Rəşad ZİYADOV,**
*"Azərbaycan müəllimi"*





